Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"

**İsa Həbibbəyli - 70**

# Milli ədəbi-nəzəri düşüncənin öncülü

## Və ya romantizm və realizmin zirvələri sorağında

(İkinci yazı)

*Çağdaş nəzəri-estetik fikrimizin korifeyi, akademik İsa Həbibbəylinin 50 illik zəngin və çoxşaxəli yaradıcılığını bir neçə mərhələyə bölmək olar. 70-80-ci illəri özündə ehtiva edən birinci mərhələnin özülündə həmin dövrün qabaqcıl və demokratik təmayüllü ədəbi-nəzəri axtarışlarının üzvi hissəsini təşkil edən romantizmşünaslıq sahəsindəki tədqiqatlar dayanır. Özünəqədərki ədəbiyyatşünaslığın və ustad ədəbiyyatşünasların XX yüzil ədəbiyyatı, xüsusən, romantik poeziya və dramaturgiya sahəsindəki araşdırmalarını davam və inkişaf etdirən gənc, döyüşkən alim, nəhayət, bu sahədəki elmi axtarış və yeniliklərini ümumiləşdirib, ədəbi ictimaiyyətə təqdim edir. 80-ci illərin birinci yarısında işıq üzü görən "Romantik lirikanın imkanları" kitabı cavan və romantizmşünas alimin sabiq Sovet İttifaqı imperiyasının hələ də kəsərdən düşmədiyi bir vaxtda, Hadiyə, Cavidə, Cavada və romantizmə düşmənçilikdən əl çəkilmədiyi, qadağalar və qətliamların hələ də köhnəlmədiyi bir zamanda cəmiyyətimizə, millətimizə, elm dünyasına ilk və sanballı töhfəsi idi. Zatən, yaxın gələcəyin böyük Mirzə Cəlilşünası və mahir realizmşünası şəhid şairlərimiz Hadi, Cavid və Cavad romantizminin mürəkkəb rəmzlər, bədii-fəlsəfi metaforalar və işarələr dünyasından realizmin əzəmətli və sərt həqiqətlər yoluna çıxmağı hədəfə almışdı. Və Azərbaycan elmində akademik İsa Həbibbəyli epoxasının təməl daşları qoyulurdu...*



Akademik İsa Həbibbəylinin yarım əsrlik elmi yaradıcılığında romantizm poetikasının və müxtəlif nəzəri problemlərin dərindən araşdırılması prioritet məsələlərdən biri kimi diqqəti cəlb edir. Azərbaycan romantizminin tədqiqi və öyrənilməsi ədəbiyyatşünaslıq elmimizin ötən yüz ildəki ən əlamətdar hadisələrindən və uğurlarından biridir. Bu sahədə ilk təməl daşlarını qoyan görkəmli alimlərimizdən biri akademik Məmməd Cəfərdirsə, elmi-nəzəri düşüncəmizdə bu istiqaməti davam etdirən, onu yeni inkişaf mərhələsinə qaldıran istedadlı və qüdrətli ədəbiyyatşünaslarımızdan biri isə akademik İsa Həbibbəylidir. Romantiklərimizin mürəkkəb yaradıcılıq prosesinin öyrənilməsindən bəhs edərkən, akademik İsa Həbibbəylinin romantizmşünas alim kimi özünəməxsusluğunu ayrıca qeyd etməliyik. Milli ədəbiyyatşünaslığın bu yöndəki təcrübə və nailiyyətlərinin yeni dövrdə və yeni şəraitdə yaradıcı şəkildə dərinləşdirilməsi və yeni müddəalarla zənginləşdirilməsində onun xidmətləri diqqətəlayiqdir. Görkəmli alimin, xüsusən, "Romantik lirikanın imkanları" (1984) kitabı bu cəhətdən diqqəti cəlb edir. Bu orijinal elmi tədqiqatda akademik Məmməd Cəfərin 50-60-cı illərin ictimai-siyasi şəraitində yaratdığı və irəli sürdüyü estetik düşüncə və mülahizələr yeni dövrdə elmi cəhətdən daha da zənginləşdirilmiş və təkmilləşdirilmişdir. Zamanın böyük alimə və mütəfəkkirə imkan vermədiyi bir sıra mühüm elmi və milli həqiqətləri söyləmək, məhz onun istedadlı şagirdinə qismət olmuşdur. Akademik İ.Həbibbəylinin həmin kitabında ifadə etdiyi aşağıdakı elmi ümumiləşdirmələr Azərbaycan ədəbiyyatşünaslığının ədəbi nəsilləri arasında mənəvi birliyi və varisliyi parlaq şəkildə nümayiş etdirir: "Doğrudan da, çoxəsrlik klassik poeziya ilə Azərbaycan sovet şeiri arasında xüsusi keçid mərhələsi təşkil edən XX əsrin romantik lirikası ideya-məzmun keyfiyyətlərinə, poetik forma, təsvir vasitələrinə və üslub baxımından əsaslandığı bədii-estetik prinsiplərə görə, novator keyfiyyətli ədəbi-bədii hadisədir. Obrazlı şəkildə desək, klassik romantik lirikadakı gözələ məhəbbəti, romantizmdə vətən sevgisi, aşiqin könül dünyasını vəsf edən qəzəli vətənin, insanın və zamanın böyük ideallarını mənalandıran sonet, marş kimi janrlar üstələmiş, tamamlamış, zənginləşdirmişdir... Dövrün mürəkkəb sosial şəraiti, yüksək vətəndaşlıq tələbləri "Məcnun kimi əlaiqi" tərk edərək, ağıla əsaslanan, "hasili-canana" - azadlığa qovuşmağa can atan lirik qəhrəmanı poeziya meydanına çıxarmışdır" .

"Romantik lirikanın imkanları"ında Azərbaycan romantizminin mühüm problemlərindən biri - romantik üslubun poetikası müqayisəli şəkildə təhlil edilir. Akademik İsa Həbibbəylinin həmin kitabında romantik üsluba verilən aşağıdakı təsnifat bu gün də öz estetik əhəmiyyətini və elmi-nəzəri aktuallığını qoruyub saxlayır. Romantik bədii metod və fərdi üslubların münasibətindən bəhs edən müəllif yazır: "Romantik bədii metodun hüdudları daxilində həmin sənətkarların hər birinin yaradıcılığı yeni poetik vasitələrdən istifadə yolu ilə təkraredilməz üslub orijinallığına malik olmuşdur. Romantik lirika əlvan, rəngarəng fərdi üslub çalarları ilə seçilmişdir" . Görkəmli nəzəriyyəçi alimin romantik lirikadakı üslub axınları və təmayüllər, fərdi özünəməxsusluqlar haqqındakı mülahizələri elmi-nəzəri dürüstlüyü və dəqiqliyi ilə diqqətəlayiqdir. Alim romantik lirikada dörd üslub istiqamətini xüsusi vurğulayır:

I. Romantik-publisist təmayül. Məsələn, Məhəmməd Hadinin poetik yolu aşağıdakı kimi müəyyənləşdirilir: "M.Hadi şeiri ilə romantik üslubun fərdi təzahür forması kimi meydana çıxan romantik-publisistik üslub obyektiv aləmin əsrarəngiz hadisə və təfərrüatlarını daha konkret, obyektiv forma və məzmunda əks etdirməyə imkan yaratmışdır" .

II. Lirik-romantik təmayül. Abbas Səhhətin üslub özünəməxsusluğunu isə müəllif bu cür dəyərləndirir: "A.Səhhətin lirik-romantik üslubu şeirə qüvvətli xəyalın əlvan poetik aləmi ilə bərabər, incə, səmimi bir lirizm gətirmişdir."

III. Romantik-fəlsəfi təmayül. Hüseyn Cavidin poetik dünyasını isə alim bizə aşağıdakı kimi təqdim edir: "H.Cavid poeziyasının romantik-fəlsəfi yüksəkliyi ideal həqiqət axtarıcılığı ilə sosial məzmun arasında bədii vəhdətin əldə olunması ilə nəticələnmişdir" .

IV. Realist-romantik təmayül. Abdulla Şaiqin poeziyasını və sənətkar fərdiyyətini A.Səhhət yaradıcılığı ilə müqayisə edərək, müəllif onun şeiriyyətinin təkrarsızlığını da dəqiq nəzəri meyar və ölçülərlə təyin edir: "Romantik şeirin realist lirika ilə ideya-sənətkarlıq müttəfiqliyi A.Səhhətlə yanaşı, realist-romantik sənətkar kimi tanınmış A.Şaiqin lirikasında bir daha təsdiq olunmuşdur" .

Akademik İsa Həbibbəyli "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" (2019) monoqrafiyasında romantizm problemlərinə yenidən qayıtmış, bu ədəbi cərəyanın poetikası və estetikası haqqında yeni elmi-nəzəri müddəalar irəli sürmüşdür.

Azərbaycan realizminin araşdırılması və öyrənilməsi sahəsində də akademik İsa Həbibbəylinin elmi əsərləri özünəməxsus bir mərhələ təşkil edir. Zəhmətkeş alimin Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığı haqqındakı fundamental tədqiqatı fikirlərimizə parlaq sübutdur. Böyük alimin 1997-ci ildə "Azərnəşr" tərəfindən nəşr olunmuş "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" kitabı ədəbiyyatşünaslığımıza şöhrət gətirdi. Əsərin bir çox xarici dillərə tərcümə edilməsi də onun elmi-nəzəri səviyyəsindən xəbər verir. Cəlil Məmmədquluzadə ilə bir sırada Azərbaycan nəsrini və realizmini zənginləşdirən böyük ədiblər Məmməd Səid Ordubadi, Mehdi Hüseyn, Mirzə İbrahimov, Mir Cəlal, İlyas Əfəndiyev, İsmayıl Şıxlı, Hüseyn İbrahimov, İsa Muğanna, Anar, Elçin və b. haqqındakı elmi düşüncə və tədqiqatları da müəllifin Azərbaycan romantizminin olduğu kimi, realizmin zirvələrini də məharətlə fəth etdiyini göstərir.

Akademik İsa Həbibbəylinin tədqiqatlarında Azərbaycan realizminin bütün inkişaf mərhələlərindən geniş bəhs edilmişdir. Cəlil Məmmədquluzadəyə həsr edilmiş elmi əsərlərində Azərbaycan tənqidi realizminin təşəkkülü və inkişafı tədqiq olunub ümumiləşdirilmişdir...

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyində (2017) akademik İsa Həbibbəyli ilk dəfə olaraq yeni tarixi epoxanın çoxmetodlu ədəbiyyat anlayışını elmi cəhətdən izah edərək, müasir dövrdə Azərbaycan ədəbiyyatında neorealizm, postmodernizm, magik realizm, dekadentizm kimi ədəbi cərəyanların formalaşmaqda olduğunu elmi-nəzəri cəhətdən əsaslandırmışdır.

Akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" (Bakı, 2019) monoqrafiyasında milli ədəbiyyatın inkişaf mərhələləri müəyyən edilərkən bir sıra digər faktorlarla yanaşı, ədəbi cərəyan amillərinə də istinad olunduğu üçün realizmin tarixi taleyi və funksiyaları diqqət mərkəzinə çəkilmişdir. İsa Həbibbəyli bu monoqrafik tədqiqatında erkən realizmdən, maarifçi realizmdən və tənqidi realizmdən ədəbi cərəyan kimi geniş bəhs etmişdir. O, həmçinin sosialist realizmi, modernizm və neorealizmin də Azərbaycan ədəbiyyatının taleyindəki rolunu və inkişafını tədqiq edib ümumiləşdirmişdir. Bunlar "Ədəbiyyat nəzəriyyəsi" (1985) adlı dərs vəsaitinin müəllifi olan İsa Həbibbəylinin son dövrlərdə ədəbiyyat nəzəriyyəsi məsələləri ilə fəal surətdə məşğul olduğunu göstərir.

Müstəqillik dövründə, xüsusən, XXI yüzillikdə Azərbaycan ədəbiyyatşünaslığında və mədəni həyatında gedən coşğun və qızğın proseslər, böyük alimin bütün yaradıcılığı boyu yenilməz məhəbbətlə öyrəndiyi və araşdırdığı milli klassiklərimiz Nizami, Füzuli, M.F.Axundovla yanaşı, Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq, Əhməd Cavad, Cəfər Cabbarlı kimi romantiklərin də, onların ruhunu və arzularını öz əsərlərində tərənnüm edən, davam etdirən məşhur və mübariz "altmışıncılar"ın da milli istiqlalımızla qırılmaz surətdə bağlı olduğunu parlaq şəkildə göstərməkdədir. Bu mənada akademik İsa Həbibbəylinin ədəbi-estetik irsi və yarım əsrlik elmi yaradıcılığı milli istiqlal uğrunda mübarizə tarixinizin öyrənilməsi nöqteyi-nəzərindən, həm də çağdaş və gələcək nəsilləri milli azadlıq və istiqlala məhəbbət ruhunda tərbiyə etmək üçün heç zaman köhnəlməyən və həmişə mötəbər milli-mənəvi mənbələrdən biridir.

**Yaşar Qasımbəyli,**
**filologiya elmləri doktoru,**
**professor**

**Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.**